# HİKMƏTLƏR VƏ NƏSİHƏTLƏR

Vazeh Mirzə Şəfi

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

hikmətin başı allahdan qorxmaqdır.*//*
Anlamaz özünə düşməndir, özgəyə necə dost olur?*/ /*Kim səni öyür, pislər dəxi.*/ /*Nəfs irzini tərk eyləməz ölənədək.*/ /*Hər kəsin təcrübələri çoxdur, əqli dəxi çoxdur.*/ /*Tənbəllik və çox yatmaq insanı allahdan uzaq eylər və fəqirliyi artırar.*/ /*Evdən irəli qonşunu axtar və yoldan irəli yoldaş.*/ /*Pislə özünü, necə ki özgəni pislərsən*/ /*Acığın əvvəli dəlilikdir, axırı peşimanlıq.*/ /*Hər kəsin həvası əqlinə qalibdir, həlak olur. */ /*Əqilli düşmən nadan dostdan yaxşıdır.*/ /*İbadət şəhvəti öldürür.*/ /*Fəqirlik yaxşıdır haram dövlətlilikdən və kasıblıq xoşdur zülmdən.*/ /*Lal dil yaxşıdır, yalançı dildən.*/ /*Xalqın pisi o alimdir ki, elminə əməl eyləməyə.*/ /*Eşit ta anlayasan və danışma ta səlamət olasan.*/ /*Üç zat məlum olmaz məgər üç yerdə: igidlik tanılmaz məgər cəng vaxtı və həlimlik bilinməz məgər acıq vaxtı və dost məlum olmaz məgər hacət vaxtı.*/ /*Ədəbsiz kişi cansız cəsəd kimidir.*/ /*Kim çox danışır, çox sürüşür.*/ /*İki kimsə doymazlar: elmi tələb eylayən və malı tələb eyləyən.*/ /*Özünu xalqdan sayma nə qədər ki, acığın özünə qalibdir.*/ /*İki halətlər insanı həlak eylərlər: malın çoxluğu və kəlamın çoxluğu.*/ /*Tövbəsiz cavan ustasız ev kimidir.*/ /*Alimin bir günu yaxşıdır cahilin hamı ömründən*/ /*Yatanın oyaqdan xəbəri olmaz.*/ /*İlan vurmuş ipdən qorxar.*/ /*Atın elməyi itlərin bayramıdır.*/ /*İki qılınc bir qına sığışmaz.*/ /*Dəmir kəsilməz məgər dəmir ilə.*/ /*Nemət şükür ilə bərqərar olur.*/ /*Qələm bir ağacdır ki, yemişi nəfdir və fikir bir dəryadır ki, mirvarisi hikmətdir.*/ /*Fəqirlik bəxşişi bəxşişlərin yaxşısıdır.*/ /*Xəlq ölüdür və elm əhli diri.*/ /*Dirilik od kimidir, əvvəli tüstü, axırı kül.*/ /*İnsana çətinraqdır öz nəfsini tanımaq.*/ /*Xalqın elmləri ikidir: həqiqətdir ki, onu təhsil eyləməkdə aciz olur və batildir ki, onun təhsili faidə verməz.*/ /*Səbirsiz fəqir yağsız çıraq kimidir. */ /*Dünyanın və malın dostluğu hamı xətaların başıdır.*/ /*Tələsməkdə peşmanlıq var, səbrdə salamat.*/ /*Diri it ölü aslandan yaxşıdır.*/ /*Qardaşların yaxşısı o kəsdir ki, xəbərləndirə qardaşını şərdən, qoruya və xeyrin tərəfinə yol göstərə.*/ /*Ölüm yavuqdur bizlərə, necə ki, kirpik gözə yavuqdur.*/ /*O kəs ki, özkənin sirrini sənə deyir, sənin sirrini dəxi özgəyə deyər.*/ /*Alim cahili tanır, ondan ötrü ki, o cahil var idi və cahil alimi tanımaz o səbəbdən ki, o alim olmayıbdır.*/ /*Heç zad sənə fayda verməz, məgər o ki, səninlədir.*/ /*Xoş o kəsə ki, özgənin eybindən öz eybinə məşğul olur.*/ /*Kim ki, tikan əkər, ondan üzüm dərməz.*/ /*Qənaət eylə ona ki, allah qismət eləyibdir ki, qane olursan.*/ /*Qorxma ondan ki, həzər eylərsən, amma həzər eylə ondan ki, arxayınsan.*/ /*Deyənə baxma, dediyinə bax.*/ /*Hər kəs hər zadı dost tutar, onu çox zikr eylər.*/ /*Kim ki, eybsiz dost axtarsa, dostsuz qalar. */ /*Zalım ölüdür, əgərçi diridir.*/ /*Yaxşılıq eyləyən kişi diridir, hərçənd elmüş ola.*/ /*Faydası yoxdur o xəzinənin ki, ondan nəfəqə verilməyə.*/ /*Şəhərlərin pisi o yerdir ki, onda doğru kişi yoxdur.*/ /*Bu günki işini sabaha qoyma.*/ /*İki şeylərin fəziləti tapılmaz, ta əldən getməyə: cavanlıqdır və afiyət.*/ /*Xalqın zəifatı o kəsdir ki, xalqın sirrini saxlamaya və qüvvətli o kişidir ki, öz acığına qalibdir.*/ /* O kişi səbrlidir ki, fəqirliyini gizlədə və o kəs qənidir ki, ona yetişəni qənaət eyləyə.*/ /*Hər kəs ki, xeyri öyrədər özgəyə, özü əməl eyləməz, o kor kimidir ki, əlində çıraq ola, özgələr onun çırağı ilə yol tapalar, amma özünə bir faydası olmaya.*/ /*Bir işə iqdam eyləmə ki, onu

bacarmazsan.*/ /*Eyləmə o işi ki, sənə faydası yoxdur.*/ /*Ümid bağlama malə, hərçənd çox olə.*/ /*Layiq deyil o əqilliyə ki, sakin ola bir şəhərdə ki, onda beş şeylər olmayalar: adil padşah və doğru qazi və haziq təbib və axar su və möhkəm bazar.*/ /*Dünya şirindir çahilə və acıdır aqilə.*/